**T Ə S V İ R İ   S Ə N Ə T**

**UOT: 746.**

**Sevil Kərimova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**e-mail: sevil.kerimova@mail.ru**

# QOBELEN SƏNƏTİMİZ YENİ KONTEKSTLƏRDƏ (TAMİLLA ABDULLAYEVANIN "RƏNGARƏNG QOBELEN DÜNYASI" FƏRDİ SƏRGİSİNƏ DAİR)

**Xülasə:** Toxuculuq ənənəsi Azərbaycan sənətinin qədim ənənəsi olaraq, XX əsrin ikinci yarısından başlayaraq yeni, qobelen sahəsini əldə etmişdir. Müvafiq tərzdə milli qobelen sənətinin tarixi və inkişafı sənətşünaslıq elmində inkişaf etmişdir və müasir mərhələdə yeni metodikalar formalaşdırmaqdadır. Qobelen rəssamlarımızdan Tamilla Abdullayevanın yaradıcılığını, elmi və pedaqoji fəaliyyətini əks edən sərginin elmi təhlili qeyd olunan istiqamətdə aktual addımlardandır.

**Açar sözlər**: qobelen, Azərbaycan incəsənəti, Tamilla Abdullayeva.

Müasir mərhələdə incəsənət tarixi kontekstində qobelen sənətinin tarixi, tədqiqat metodikaları fənlərarası yanaşma prizmasından yenidən dəyərləndirilir və yeni elmi əhəmiyyət yükü daşıyır. Bəşəriyyət tarixinin ən qədim təcrübələrindən olan, toxuculuqdan törədilən qobelen hələ Qədim dövrdə utilitar, məişət təyinatından uzaqlaşaraq dekorativ mahiyyətini vurğulamışdır. Öz inkişaf dinamikasında qobelen interyerin təyinatlı hissəsi (arakəsmə, örtük), dekorativ element (divar xalısı, panno) olmaqla yanaşı, bir çox mədəniyyətlərdə memarlığı əvəz edən konstruktiv forma qismində çıxış edir. Köçəri, və xüsusi ilə Türk mədəniyyətində qobelenin fərqli texnikalarında hazırlanan kilim və palazlar eyni zamanda arakəsmə konstruksiyası, mebel və dekor funksiyalarının icraçısıdırlar. Bu aspektdə hazırkı məqamda qobeleni sırf monumental-dekorativ təbiətli sənət növü qismində tərif etmək sənətşünaslığın yeni kontekstlərində (fənlərarası yanaşma, mədəni irs, rəqəmsal və kəmiyyət təhlil, etnoidentiklik, müqayisə nəzəriyyələri (Şərq-Qərb, ənənəvi-müasir və s.) müvafiq pozisiyalarını itirir.

Müasir mərhələdə qobelen rəssamlarının formalaşdırdığı bədii-estetik və konstruktiv tendensiyalar ənənəvi, klassik formal-üslub və atributika metodikaların yetərsizliyini nümayiş edir. Postmodernist konsepsiyaların qısa zamanlı və nisbi uğuru qobelenin müasir inkişafını izah etməyə qadir deyil, çünki 1990-lardan sonra bu sahədə baş verən renovativ proseslər postmodernizm metodlarının qobelenin təhlilinə dair ümumi nəzəriyyə yarada bilməmişdir. Qeyd olunan tarixi mərhələdə qobelen sənətinin yeni inkişaf dalğasının konkret regionlar və mədəni areallarla (Kanada, ABŞ, Şərqi Avropa, postsovet məkanı) identifikasiyası postmodernizmin "ənənənin əridilməsi" konsepsiyasına sığmır.

Məhz bu baxımdan müasir qobelen sənətinə dair tədqiqatların metamodernizm çərçivəsində təhlili məqsədəuyğun görünür. Burada metamodernizmin "qırmızı xətti"ndə - modernizmin entuazmı, təşəbbüskarlığı və postmodernizmin ironiyasının kəsişməsində ənənəvi sənətə formalaşan yeni yanaşma aşkar görünməkdədir. Ənənəvi qobelen texnikalarının modernləşməsi (qobelenin keramika, rəngkarlıq, bədii şüşə, metal ilə sintezi), onun divar, müstəvidən uzaqlaşması (3D qobelenlər, "enviroment" formatları), və ən əsası, qobelenin təsvir mövzularının diapazonunun genişlənməsi metamodernizmin təməl iki kateqoriyasından irəli gəlir. 1990-cı illərdən sonra, ziddiyyətli mühitdə cərəyanın formalaşmasının birinci səbəbi kimi "maddi səbəblər qeyd olunur (iqlimin dəyişməsi, iqtisadi böhranlar, terrorizm)" (3; s. 17). Məhz bu aspektdə müasir qobelenin mobilliyi, çevikliyi vurğulana bilər. Metamodernizmin ikinci səbəbi ilə qeyri-maddi təbiətli dəyişikliklərin (fərqliliyin (differansların) kütləvi mədəniyyətə inteqrasiyası, tənqidi nəzəriyyələrin bazar iqtisadiyyatının məhsulunadək enməsi) getdikcə normaya çevrilməsidir (3; s. 243). Hər iki şərtin reallaşması qobelen sənətinin dirçəlməsi üçün münbit mühit yaradır.

Qobelen tarixinin icmalı təhlili bu sənətin davamlı inkişafını dalğavarı trayektoriyası ilə izah edir. Xronoloji baxımdan sənətin çiçəklənmə və tənəzzül mərhələləri böyük üslublar və yerli ənənələrin inteqrasiyası ilə müşahidə edilir. Texniki baxımdan milli sənətimizdə mövcud olan kilimlərə, palazlara yaxınlıq qobelenin Şərq mənşəyini açıqlayan amillərdəndir. Qobelen sənətinin daim Şərq-Qərb kontekstində incələnməsi onun inkişafını müəyyən edən digər faktordur. Qədim Misirdə "sadə keçirmə" üsullu sərt toxuculuq nümunələrindən başlayan və Ellinistik Misirdə Yunan və Yaxın Şərq ənənəsini birləşdirən, Səlib yürüşlərindən sonra Avropaya gələn və burada rəngkarlıqdan nümunələrindən

bəhrələnən, onun süjetlərini təkrarlayan, II Dünya müharibəsindən sonra isə yeni çiçəklənmə dövrünü yaşayan qobelen müasir mərhələdə fərqli istiqamətlərdə inkişaf edir. Bu sabitliyin, davamlılığın əsas səbəbi qobelenin spesifik psixoloji effektindən də irəli gəlir – mövcud olduğu məkanda isti, güvəniləcək ab-hava formalaşdırır, iplər, ilmələrlə mühitə bağlanır, yeni, yerli bədii formalara, rənglərə və ritmlərə uyğunlaşaraq, məkanın mərkəzinə çevrilir.

Tamilla Abdullayevanın Milli Xalça Muzeyində təqdim etdiyi əsərlər qobelenin Azərbaycan bədii zəminində keçdiyi yolu və eyni zamanda qobelenə dair müəllif pozisiyasını nümayiş edən məqamdır. Milli sənətşünaslıqda bu tip sərgilərin elmi baxımdan dəyərləndirilməsi nadir haldır. Müəllifin mövzuya müraciəti məhz sərginin həcmi, böyük zaman kəsimini əhatə etməsi, retrospektiv formatından irəli gəlir. Abdullayeva miqyaslı rəssamın yaradıcılığında bir neçə peşəkar məktəbin və yerli ənənənin kəsişməsi, süjet və obrazların seçim meyarlarının tənzimlənməsi, texniki icraların spesifikası, əsərlərin müasir interyerdə oxunması, və nəhayət, onların təqdimat, dəyər faktoru kimi amillər Azərbaycan bədii reallığının təhlilində yer alacaq amildir.

Tamilla Abdullayevanın yaradıcılığında qobelen bədii toxuculuq kontekstində spesifik seçim məntiqinə malikdir. Rəssamın məhz qobelen sahəsini seçməsi təsadüf deyil. Zaman və məkan kontekstində 1970-ci illərdə Sovet məkanında qobelen çiçəklənmə dövrünü yaşayırdı. 1955-ci ildə Tiflisdə anadan olan Tamilla Abdullayeva ilk bədii təhsilini elə həmin şəhərdə, 1972-1975-ci illərdə M.Toidze adına Rəssamlıq məktəbində (hazırda Tiflis Rəssamlıq Akademiyası), Bədii tekstil ixtisası üzrə almışdır. Qeyd olunan illərdə, ümumsovet məkanında 1960-cı illərdə baş verən siyasi-mədəni "mülayimləşmənin" ("Ottepel") nəticələri sırasında Qərb incəsənətinin müəyyən təsirləri hələ də hiss olunmaqda idi. Tiflis Məktəbi yenilənmə dövrünü yaşayırdı, geniş texniki imkanlar və innovativ bədii həllər tətbiq edilirdi.

"Yeni tekstil dalğası" – qobelenə marağın artması, onun yeni müstəvilərdə təqdimatı, yerli məktəblərin formalaşması qeyd olunan mərhələdə sovet sənəti üçün də səciyyəvi idi. Fransada, Jan Lürsanın Obüsson məktəbi ilə İntibahını yaşamağa başlayan qobelenin unikal xüsusiyyəti, monumental-dekorativ mahiyyəti, 1960-cı illərdən SSRİ-də Latviyalı rəssam Rudolf Heymrats, estoniyalı Eym, Reemets, litvalı Balçikonis, Qedrimene tərəfindən yenidən dəyərləndirilir. Ənənəvi qobelen yeni formatda "Tapiseriya" termini daxilində dərk edilir, onun

interyerlə əlaqəsi, dekorativliyi, innovativ süjetlərə açıqlığı getdikcə digər amilləri üstəliyir. Tez zamanda Moldovada, Ukraynada, Moskvada və Leninqradda (Sankt-Peterburq) qobelen bədii ali təhsil müəssisələrin aparıcı istiqamətinə çevrilir. 1960-1960-cı illərdə Qafqaz məktəbləri bu prosesə cəlb edilir. Forma yaradıcı istiqamətdə təcrübələr, süjetlərin seçimində sosial yüklü mövzular, mütləq ideoloji məzmun aparıcı xüsusiyyətlər kimi qeyd olunur. Monumental tekstilin inkişafında ümumbəşəri fəlsəfi mövzuların tətbiqi izlənirdi.

Tiflis Rəssamlıq Məktəbi məhz belə mərkəzlərdən idi. Azərbaycanda qobelen sənətinin innovativ həlli də bu təhsil ocağının təsirləri ilə bağlıdır. "1960-1970-ci illərdə burada tədris təcrübəsini qobelen ənənəsinin banisi Ədhəm Yusifov keçmişdir" (1; s. 187). T.Abdullayevaya sahənin məşhur siması, gürcü və çin qobelen sənətinin banisi, rəssam, keramist Qivi Kandarellinin emalatxanasında təhsil almışdır. Qeyd edək ki, Abdullayeva üçün qobelen texnikası yeni deyildi. Milli xovsuz xalça texnikalarına bələd olan rəssam, rahat tərzdə Kanderellinin innovasiyalarını mənimsəyə bilmişdir və onun tövsiyəsi ilə bir müddət "Solani" Tiflis Yaradıcılıq Birliyində rəssam-tərtibatçı qismində çalışır. Təhsil, nəzəriyyə və təcrübəni yaradıcılığın ilkin mərhələlərində birləşdirə bilən rəssam burada əsərlərə olan tələbat sisteminin strukturuna da yiyələnir. "Solani" suvenir məhsulu hazırlayan nadir müəssisələrdən idi. Qobelen və kiçik ölçülü xalçalar, tekstil, geyim nümunələri dövrün ənənəvi həllinə əsasən minimum stilizə edilmiş formatda təqdim olunurdu.

Vətənə qayıdan rəssam həm təhsilini, həm yaradıcılıq fəaliyyətini davam edir. 1978-ci ildən o, Azərbaycan Xalça və Dekorativ Sənətlər Muzeyində (hazırda Milli Xalça Muzeyi) işləyir, 1979-1984cü illərdə ildə isə Dövlət İncəsənət İnstitutunun "Dekorativ-tətbiqi sənət" (hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) ixtisası üzrə təhsil alır. Bu illər ərzində Tamilla Abdullayevanın yaradıcılıq üslubunun formalaşması, bədii sintezə, ənənənin canlandırılmasına meylləri inkişaf edir. Rəssamın Tiflis məktəbi vasitəsi ilə Avropa qobelenin xüsusiyyətlərini (xüsusi ilə Fransız məktəbini) və milli xalçaçılıq sistemində ənənəvi strukturun mənimsəməsi Tamilla xanımın fərdi bədii ifasını müəyyən etmişdir. Bu yolda onun müəllimi, rəhbəri dahi Lətif Kərimov olmuşdur. İnstitut illərində peşəkar xalçaçı-rəssam kimi formalaşan Abdullayevanın diplom işi "İslimi-bəndi" kompozisiyasıdır. Abdullayevanın detallara meylliyi, nəbati forma ilə bədii manipulyasiyalar və xalçanın metrik təhlili, modulların

seçimi və hesablanması imi təməl bilik və vərdişlər qeyd olunan əsərdə əksini tapmışdır. Uzun müddət elmi-praktiki fəaliyyətlə məşğul olan rəssam (T.Abdullayeva 30 il AMEA-nın Memarlıq və İncəsənət Universitetində çalışıb), əsrin sonunadək yaradıcılıq üslubunda xalça və qobelen ənənəsinin sintezini tətbiq edib. Səngidə təqdim olunan və 1990-cı illərin sonlarında yaradılan əsərlərdə Abdullayevanın həmin dövrdə qobelen sənəti sahəsində izlənən ümumdünya tendensiyalar izlənir. Ənənəvi süjetlərin və motivlərin yenidən dəyərləndirilməsi, abstraksiyaya meyllər "İlin dörd fəsli" kvadritipində (1998) səslənir. Maraqlıdır ki, rəssam eyni mövzuya illər sonra yeni formatda, yeni texnikada və yeni, pikselvari həll ilə qayıdır (2020, yun, akril, dolama). Müvafiq qayıdış Tamilla Abdullayeva üçün səciyyəvidir. Sevilən motivlərə yeni müraciət, onların zaman sınağından keçirilməsi onun yaradıcılıq nəbzini müəyyən edir. Bu keyfiyyəti 2000-ci illərin ortalarından başlayaraq rəssamın fərdi, özünəməxsus manerasının da göstəricisi qismində çıxış edir. 2004-cü ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətə başlayan rəssamın artıq bir neçə nəsil tələbəsi onun məktəbini davam edir.

2015-ci ildə ilk fərdi sərgisini təqdim edən Tamilla Abdullayeva, hazırkı "Rəngarəng qobelen dünyası"nın əsərlərini əsasən pandemiya dövründə yaratmışdır. Milli Xalça Muzeyində keçirilən sərginin konsepti rəssamın əsərlərinin yuxarıda qeyd olunan retrospektiv nümayişini də nəzərə almışdır. Bu üsulla Abdullayevanın bədii axtarışlarının təkamülü, obraz və süjetlərin seçim meyarları, ifadə dilinin zənginliyi aydın şəkildə ziyarətçiyə açıqlanır. Abdullayevanın dünyası aram tərzdə, əsərdən əsərə keçərək aydınlaşır. Yaradıcılığında təbiət və ümumiyyətlə həyat, yaşam ideyası əsas motiv qismində izah edən rəssam onun ən uyğun ifadə materialını qobelendə görür. Xalça əsərlərindən fərqli olaraq, Abdullayeva qobelenlərinin müəllifi və icraçısıdır (toxucusudur) (Qərb ənənəsindən fərqli olaraq Şərq və sonralar postsovet məktəblərində bütün prosesi rəssam özü icra edir (eskiz və toxuculuq). Sərginin isti və işıqlı ovqatını formalaşdıran yumşaq qobelenlərin mövzusu rəssam tərəfindən şərti olaraq "güllər", "kəpənəklər", "ağaclar", "abstraksiyalar" kimi tərif edilir. Fiqurativlik rəssam tərəfindən fərqli səviyyədə tənzimlənir: Abdullayeva formaları bəzən stilizasiya edir, bəzən isə deformasiyaya qədər dəyişdirir və ya tamamən predmetsiz abstrakt-dekorativ meyllərini nümayiş edir. Əsərlərdə süjet xətti adətən izlənmir, lakin daxili məkan daim dinamikdir, rəssam burada öz dramaturgiyasını qurur.

Tamilla xanımın yaratdığı yeganə portret əsəri müəllimi, Lətif Kərimovun 2007-ci ildə işlənmiş obrazıdır. Realistik portretdə ilmələrin fakturası impressionistik təəssürat yaradır. Məşhur obraz vaxtı ilə Lətif Kərimov tərəfindən hədiyyə olunmuş foto əsasında işlənmişdir. Təəssüratların koloristik həlli açıq rənglərdən (fon həlli) portretə doğru isinir və Ustadın simasında qəhvəyi, innabı, sarı tonlarda tamamlanır.

Qobelençi rəssamın təmiz rənglərə marağı, vizual motivin tamamən dekorativ vəhdətə tabe olması, impressionistik və postimpresionizm formalarının fərdi interpretasiyaları "Güllər" silsilələrində bəlli olur. Maraqlıdır ki, Abdullayevanın bu mövzuya ilk müraciətlərində ("Günəbaxan", "Nar") kompozisiyalar daha formal ruhda həll olunur, lakin son illərdə yaratdığı əsərlərdə ("Çəməndə güllər" (2020), "Limon" (2020), "Xurma" (2020), "Şəhidlərin xatirəsinə" (2021)) detallara meyllər artır, rəngkarlıq plastikası mürəkkəbləşir, fərdi vurğular güclənir. Çiçəklərin müstəvi üzərində harmonik səpələnməsi, modulların düzgün yerləşdirilməsi Ustadın materialın və mövzunun bilicisi kimi çıxış etməsini nümayiş edir. Çiçək motivləri məşhur "mille fleur" (min çiçək) kompozisiyalarına reministentsiya ötürsə də, müəllif onları tamamən müstəqil, fərdi üslubda vermişdir.

Abdullayeva üçün səciyyəvi olan obraz Həyat ağacıdır. Onun simvolikası real, təbiət olsa da, müəllif getdikcə ağacın əbədiliyini, mücərrədliyini vurğulayır. Simvolizmə meylliyin məntiqi inkişafı hazırkı mərhələdə rəssam üçün aparıcıdır. Pandemiya dövründə yaradılan "Maral", "Maral. Qədim Azərbaycan rəmzləri", "Kompozisiya" əsərlərində milli simvolika, tanınan mədəni irs nümunələri müəllif interpretasiyasında təqdim olunur. Rəssam bu istiqamətli maraq müstəvisini yaradıcılıq illərinin müdrikliyi ilə əlaqələndirir. Fiqurativ həllər qədim Türk simvollarını balbal tektonikası üslubunda təqdim edir, lakin burada Pazırıq xalçasına reministsensiyalar aydın oxunur (ikonoqrafik aspektdə 24 xanaya bölünmə, haşiyənin həlli). Rəssamın tanınan keramika nümunələrinə müraciəti onların simvolların əsas daşıyıcıları kimi təqdimatından irəli gəlir (2; s. 7). Qobelenin səthi olunan əsərlərin toxunmamış qobelen texnikasına işlənməsi rəssam üçün yeni addımdır.

Ekspozisiyada Abdullayevanın xalça nümunələri ənənəvi motivlərin və sxemlərin fərdi interpretasiyalarını təqdim edir. Onun "İslimi-bəndi", "Əfşan", "Saxsıda güllər" kompozisiyaları ikonoqrafik sxemlər üzərində qurulur, lakin Abdullayeva kolorit seçimində və ritmlərin oyununda, bəzən isə modulların

nisbətlərində təcrübə və yaradıcılıq cəsarətindən təkan alaraq çıxış edir. Rəng duyumununa güvənən rəssamın yaradıcılıq potensialı sərgidə təqdim olunan xalça eskizlərində də bəlli olur. İncə pastel tonlu "Ornamental kompozisiya"larda mərkəzi göllərin inkişaf motivləri çiçəklərlə verilir, haşiyələrdə monolit həll üstünlük təşkil edir.

Sərginin nisbətən uzunmüddətli olması ziyarətçi auditoriyasının geniş və fərqli olmasına ümidlər verir. Milli Xalça Muzeyinin təcrübəsinə və hər zamankı peşəkarlığına əsaslanaraq böyük paralel proqramlar da nəzərdə tutulub. Fevral ayının sonunadək muzeydə mühazirələr, ustad dərsləri, rəssamla görüşlər, kurator və müəllif ekskursiyaları ünvanlı şəkildə təşkil olunub. Sərginin bu formatda təşkili görkəmli rəssamımızın yaradıcılığına maraqla yanaşı, qobelen və xalça sənətimizin əhəmiyyətinə də marağın artmasına mühüm və ümidverici təkandır.

**Ədəbiyyat siyahısı:**

1. Велиева Г. «Адхам Юсубов и этапы развития гобеленного искусства в Азербайджане, Культура народов Причерноморья, 2011, №199, Т.2, с.186-188).

2. Рзаева С. Древние культы и символика Азербайджана (доисламского периода), Баку, Элм, 2010, с.7.

3. Timotheus Vermeulen, Robin van den Akker. Notes on metamodernism // Journal of Aesthetics & Culture, 2010-01-01, T. 2, p. 567

**Севиль Керимова**

## ИСКУССТВО ГОБЕЛЕНА В НОВЫХ КОНТЕКСТАХ (О ПЕРСОНАЛЬНОЙ ВЫСТАВКЕ ТАМИЛЛЫ АБДУЛЛАЕВОЙ «МИР КРАСОЧНОГО ГОБЕЛЕНА»)

**Резюме**. Художественное ткачество, будучи одним из древнейших традиций азербайджанского искусства, во второй половине XX века обогатилось новым направлением - гобелен. Его традиции, связь с национальными техниками ткачества и инновационные художественные тенденции создали благоприятную почву для исследований в отечественной искусствоведческой науке. Творчество ведущего художника гобелена, синтезирующего традиции европейской школы и национального ковра нашло яркое и

точное отражение в произведениях, демонстрирующихся на персональной выставке, научному обзору которой посвящена предлагаемая статья.

Ключевые слова: гобелен, азербайджанское искусство, Тамилла Абдуллаева

**Sevil Karimova**

**OUR TAPESTRY ART IN NEW CONTEXTS**
**(About Tamilla Abdullayeva`s personal exhibition**
**“World of colourful tapestry”)**

**Summary:** Artistic weaving, being one of the oldest traditions of Azerbaijani art, was enriched with a new direction in the second half of the 20th century – tapestry. Its traditions, connection with national weaving techniques and innovative artistic trends have created a fertile ground for research in the domestic art science. The work of the leading tapestry artist, synthesizing the traditions of the European school and the national carpet, has found a vivid and accurate reflection in the works shown at the solo exhibition, the scientific review of which is the subject of the proposed article.

**Key words**: tapestries, art of Azerbaijan, Tamilla Abdullayeva



***Tamilla Abdullayeva “Marallar.***
***Qədim Azərbaycan rəmzləri”, 2019-2020***

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18. 01. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**